AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2023, № 2 (276), 40-51
doi.org/10.48445/c2101-5569-9702-b

**QRAMMATİKA**

# Sintaktik funksiyaların formalaşmasında qoşmaların rolu

***Rəhilə Hümmətova***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan. E-mail: rahilahummetova@gmail.com
https://orcid.org/0000-0003-2521-6361

**XÜLASƏ**
Qoşmalar sözlər arasında sintaktik əlaqə və ya münasibət yaratmaqla mənanın daha konkret və dəqiq ifadə olunmasına, danışanın məqsədindən asılı olaraq fikrə xüsusi məna incəliyi verilməsinə xidmət edir. Sintaktik vahidlərin qurulmasında müstəqil və köməkçi sözlər, işarə və nisbi əvəzliklər (leksik elementlər), cümlə üzvləri, cümlə sıralanması və intonasiya əsas faktorlardır. Söz formalarının sintaktik əlaqə yaradan elementləri qrammatik şəkilçilər və qoşmalardır. Qrammatik şəkilçilərin ifadə edə bilmədiyi formal və semantik əlaqələr qoşmalar vasitəsilə həyata keçirilir. Sintaktik vahidlərin qurulmasında bütün dil vahidləri, eləcə də qoşma sözlər arasında sintaktik əlaqə yaradır, mənanın dəqiq ifadə olunmasını təmin edir. Qoşmalar qrammatik-semantik əlaqənin formalaşmasına da xidmət edir.

**AÇAR SÖZLƏR**
qoşma, qoşmanın semantik qrammatik xüsusiyyətləri, qoşmaların sintaksislə əlaqəli tədrisi

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 18.04.2023
qəbul edilib: 28.05.2023

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2023, NO.2, VOL. 276, 40-51
doi.org/10.48445/c2101-5569-9702-b

GRAMMAR

# In the formation of syntactic functions the role of attachments

***Rahila Hummatova***
Doctor of Philosophy in Philology, Associate professor. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: rahilahummetova@gmail.com
https://orcid.org /0000-0003-2521-6361

**ABSTRACT**
By creating a syntactic connection or relationship between words, conjunctions serve to express the meaning more concretely and precisely, and to give a special subtlety of meaning to the idea depending on the purpose of the speaker. Independent words, auxiliary words, signs and relative pronouns (lexical elements), sentence members, order of the sentence and intonation are the main factors in the construction of syntactic units. Grammatical suffixes and conjunctions are the syntactically linking elements of word forms. Formal and semantic relations, which grammatical suffixes cannot express, are realized through conjunctions. In the construction of syntactic units, it creates a syntactic connection between all language units, as well as compound words, and ensures the precise expression of the meaning. Conjunctions serve to form a grammatical-semantic relationship. Conjunctions serve to form a grammatical-semantic relationship.

**KEYWORDS**
postposition, semantic-grammatical features of conjunction, syntactic teaching of conjunctions

**ARTICLE HISTORY**
Received: 18.04.2023
Accepted: 28.05.2023

**Giriş / Introduction**

Qoşmalar sözlər arasında sintaktik əlaqə və ya münasibət yaratmaqla mənanın daha konkret və dəqiq ifadə olunmasına, danışanın məqsədindən asılı olaraq fikrə xüsusi məna incəliyi verilməsinə xidmət edir. Bu da onu göstərir ki, qoşma həm özündə potensial leksik-semantik mənanı (qoşmalarda leksik məna az da olsa, qalmaqdadır) qoruyur, həm də qrammatik özəlliyə malik xüsusiyyət daşıyır. Qoşmanın semantik-qrammatik xüsusiyyətlərinin olması müxtəlif sintaktik funksiyaların formalaşmasında əhəmiyyətli rol oynayır. Qoşma istənilən sözə qoşulmur, çünki onları bir-biri ilə əlaqələndirən semantik yaxınlıq olmalıdır. Bu yaxınlıq əlaqələnən sözlərin həm daxili məzmunu, həm də onların ümumi semantikası ilə bağlı yaranır. Qoşma və qrammatik şəkilçilər söz formatının sintaktik əlaqə yaradan elementləridir. Bu şəkilçilər sintaktik əlaqələri təmin edir. Məsələn: *kitabın cildi, insanın taleyi, dağ havası*; *Mən gəlirəm (Mən müəlliməm)*; *Sən gəlirsən (Sən müəllimsən)*; *gələsiyəm, gəlmişəm, alasıdır, alacaqdır, gəlməlidir* və s. Qrammatik şəkilçilərin ifadə edə bilmədiyi formal və semantik əlaqələr qoşmalar vasitəsilə həyata keçirilir.

*Araşdırma*. Sintaktik funksiyaların formalaşmasında qoşmanın rolunu inteqrativ əsaslı təlim prosesində daha aydın görmək mümkündür. “Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır”[1].

Qoşma ilə sintaksisin inteqrasiyası “Sintaktik əlaqələr” mövzusundan başlayır. Aydındır ki, cümlədə sözlər arasında sintaktik əlaqə olmasa, fikir ifadə edilə bilməz. Elə cümlə üzvlərini şərtləndirən amillərdən birincisi də, məhz onlar arasındakı sintaktik əlaqədir. Dilin sintaktik quruluşunun əsas vahidi olan cümlə ayrı-ayrı söz və söz birləşmələrinin məna və qrammatik cəhətdən əlaqəsi əsasında formalaşaraq müəyyən bir fikir ifadə edir, ünsiyyət yaradır. Cümlənin tərkibini təşkil edən sözlər lüğəvi mənaya malik olmaqla cümlə daxilində sintaktik suala cavab verərək qrammatik cəhətdən bir-biri ilə əlaqələnir. Cümlə daxilindəki həmin söz və söz birləşmələri *cümlə üzvü* adlanır. Məsələn, *Mən bu gün dərsə yaxşı hazırlaşmışam*. Cümlə daxilində verilən bu sözlərin hər biri lüğəvi mənaya malik olub, sintaktik suala cavab verir və onlar arasında sintaktik əlaqə mövcuddur. *Mən* (uzlaşma) *hazırlaşmışam.* Tabeedici üzv mübtədadır. *Dərsə* (idarə) *hazırlaşmışam.* Tabe edən üzv xəbərdir. *Yaxşı* (yanaşma) *hazırlaşmışam.* Tabe edən üzv xəbərdir. *Bu gün*

[1]http://sərqqapisi.az. «elm-v-t-hsil» 4…

(yanaşma) *hazırlaşmışam*. Tabe edən üzv xəbərdir. Beləliklə, cümlə üzvlərinə belə bir tərif veririk: Müstəqil leksik mənaya malik olub, sintaktik suala cavab verən, aralarında məna və qrammatik cəhətdən əlaqə olan söz və söz birləşməsinə *cümlə üzvü* deyilir. Nümunə kimi verdiyimiz bu cümlədə sintaktik əlaqənin yaranmasında əsas vasitələr qrammatik şəkilçilər (-am, -ə) və sözlərin mənaca yanaşmasıdır. Digər nümunələri nəzərdən keçirək:

*Munca* cövr etdin mana, namehribanlıqdan nə sud?
...Həm dəxi könlümdə dərman, səndən *özgə* kimsə yox
(Ş.İ.Xətai).

Yüz dərman tapıldı çarəmdən *qeyri,*
Yüz dərdlər sağaldı yaramdan *qeyri,*
Fərhad ilə Məcnun, Kərəmdən *qeyri,*
Cuma *tək* yetməyən murada kimdir?!
(M.Cuma)

Seçdiyimiz misralarda qrammatik şəkilçilərin ifadə edə bilmədiyi formal və semantik əlaqələri qoşmalar həyata keçirir. Faktı izləyək: munca – bu qədər. Verilən nümunələrdə qoşma olmasa, *cövr* sözü ilə əlaqə necə mümkün ola bilər? Eləcə də "səndən" və "kimsə" sözləri arasında *özgə*, "çarəmdən – dərman", "yaramdan – dərdlər", "Kərəmdən" "murada yetməyən" sözləri arasında *qeyri*, "Cuma – yetməyən" arasında *tək* qoşması olmasa idi, bu qədər estetik zövq aşılayan, yüksək poetik tutuma malik olan misralar yaranardımı? Deməli, misralarda işlənmiş bu qoşmalar qrammatik-semantik əlaqənin formalaşmasına xidmət edir. "Qoşmalar idarəedicilik xüsusiyyətinə malikdir və onların qoşulduğu söz ismin müəyyən bir halında olmalıdır" [3, s.336].

Qoşma ilə sintaksis arasında ikinci inteqrasiya söz birləşmələrinin tədrisi ilə bağlıdır. İsmi və feili birləşmələrin bəzi hallarda qoşma ilə işlənməsi məlum olan dil faktlarındandır. Qoşmalarla işlənən ismi birləşmələrin birinci tərəfi həmişə substantiv sözlərdən, əsasən, isimlərdən, ikinci tərəfi isə isim və sifətlərdən ibarət olur. Bu cür birləşmələr təyini söz birləşmələrinə tabe olmayan (qeyri-təyini) ismi birləşmələr adlanır. Qeyri-təyini ismi birləşmələrdə adlıq halda olan isim və ya yiyəlik halda işlənən əvəzlik qoşma ilə birlikdə ikinci tərəfin əlamətini bildirir, yaxud onu müəyyən əşya ilə müqayisə edib mənasını konkretləşdirir. Təyini söz birləşmələrinə tabe olmayan qoşmalı ismi birləşmələrin modeli belədir: müstəqil söz + qoşma + müstəqil söz: *həyat üçün mücadilə, od kimi isti, günəş kimi parlaq, ay kimi soyuq, bizim kimi insan, sənin tək tələbə* və s.

Qoşma sintaktik vahidlərin – feili birləşmələrin tərəfləri arasında da əlaqələndirici vasitə kimi iştirak edir. "Qoşmalar ayrı-ayrı sözlərin birləşməsinə, söz birləşməsi əmələ gətirməsinə kömək edir: *quş kimi uçmaq, arzu ilə yaşamaq*. Qoşmalar öz-özlüyündə feillə əlaqə saxlaya bilməyən, feilin tələblərinə tabe olmayan yiyəlik halın feillə əlaqəsini təmin edir: *onun kimi oxumaq, bizim kimi yaşamaq*" [1, s.72]. Qoşmalar bu cür birləşmələrin komponentləri arasındakı məna əlaqələrini reallaşdırır, onların daha qabarıq şəkildə ifadə edilməsinə, mənanın konkretləşməsinə, fikrin aydın anlaşılmasına imkan yaradır: *yola getmək – yola sarı getmək; səhər yatmaq – səhərdən bəri yatmaq, səhərə qədər yatmaq; evə getmək – evə kimi getmək, evədək getmək, evə sarı getmək* və s. Qoşmaları dəyişdirərək feili birləşmələrin komponentləri arasında yeni məna əlaqəsi yaratmaq və ya əksinə, onları eyni ilə saxlayıb birləşmənin tərəflərini dəyişdirməklə komponentlər arasındakı məna əlaqəsinə təsir etmək olur. Bu zaman, təbii ki, əlaqənin növü də dəyişəcək: *maşın tək getmək, maşın ilə getmək, maşın üçün getmək, maşına qədər getmək; sahil kənarı ilə gedən, qardaşı ilə gedən, qum ilə sənət yaradan* və s. Göründüyü kimi, feili birləşmələrin mənaları arasındakı fərq qoşmaların qrammatik semantikasından asılı olaraq meydana çıxır.

Qoşma ilə sintaksis bölmələri arasında digər inteqrasiya mühitinin formalaşması cümlə üzvlərinin ifadə vasitələri ilə bağlıdır. Məlumdur ki, qoşma qoşulduğu sözlərə müəyyən məna verməklə yanaşı, müxtəlif cümlə üzvü vəzifəsini də daşıyır. Bu da onu göstərir ki, qoşma həm özündə potensial leksik-semantik mənanı (qoşmalarda leksik məna az da olsa, qalmaqdadır) qoruyur, həm də qrammatik özəlliyə malikdir. Onun semantik-qrammatik xüsusiyyətlərinin olması müxtəlif sintaktik funksiyanın formalaşmasında əhəmiyyətli dərəcədə rol oynayır.

Məlum olduğu kimi, qoşma qrammatik kateqoriyaya daxildir və o, sözlər arasında əlaqənin yaranmasına xidmət edir. Bu proses zamanı əsas yük ismin hal kateqoriyasının üzərinə düşür. Bu cəhətdən qoşma hal funksiyasını yerinə yetirərək nominativlikdən kənar olur. Buna baxmayaraq o, konkret sintaktik vəzifələrin formalaşmasında mühüm rol oynayır. Adətən əksər qoşmaların morfoloji cəhətdən dəyişmədiyi məlumdur. Lakin o da məlumdur ki, bir çox qoşmalar qrammatik şəkilçilər (kəmiyyət, mənsubiyyət, xəbərlik şəkilçiləri) qəbul edərək substantivləşir. Bu zaman onlar müxtəlif sintaktik vəzifələr (mübtəda, xəbər) yerinə yetirə bilir.

Mübtəda və xəbər cümlənin qrammatik əsasını təşkil edən baş üzvlərdir. Onlar semantik əsaslarla deyil, struktur-funksional əsaslarla müəyyənləşir. Yəni baş üzvlər

xəbərlik – şəxs kateqoriyasının morfoloji göstəriciləri əsasında formalaşır. Xəbərin ikinci dərəcəli üzvləri (tamamlıq, yer zərfliyi) idarə etməsi də struktur-funksional əsaslara söykənir. Qrammatik formalar sintaktik səviyyədə müxtəlif cümlə üzvlərinin meydana çıxmasına şərait yaradır. Bu cəhətləri nəzərə aldıqda qoşmanın qoşulduğu sözlə birlikdə cümlənin mübtədası olmağı şübhə yaratmır. Mübtəda cümlədə yalnız özünəməxsus qrammatik formada, yəni ismin adlıq halında olması, qrammatik cəhətdən heç bir cümlə üzvündən asılı olmaması ilə deyil, məzmunu ilə də fərqlənir. Belə ki, mübtəda cümlənin fikir özülünü, fikir predmetini, xəbərdəki məzmun predmetini bildirir; substantiv nitq hissələri, söz birləşmələri ilə ifadə olunur; kim?, nə?, bəzən də hara? suallarından birinə cavab verir. Müxtəlif məzmunlu söz və ifadələr substantivləşdikdə məhz bu keyfiyyəti qazana bilir. Mübtəda qrammatik formaların funksiyasından asılı olaraq da müxtəlif cümlə üzvü vəzifəsini daşımış olur. Qoşmalı sözlər mənsubiyyət və kəmiyyət kateqoriyasının qrammatik formalarını qəbul edərək mübtəda, xəbərlik kateqoriyasının qrammatik formalarını qəbul edərək xəbər vəzifəsini icra edir. Məsələn, Sən hələ də başa düşmürsən ki, *onun kimisi* heç vaxt dediyindən dönməz (Ş.Arif). *Bizim kimilər* bu cəmiyyətlə ayaqlaşa bilmir (İ.Əfəndiyev). *Səndən başqası* illərlə davam edən bu qan davasını yatıra bilməz, gəl daşı ətəyindən tök (İ.M). Vətən torpağından gətirdiyim bu çiçəklər *sənin üçündür*. Maşallah, boyun boydur ki, lap *çinar kimidir* (Ş.Arif). Adam var, nur səpər, işıq yandırar, adam var, fitnəkar *şeytan kimidir* (A.Mikayıl Azaflı). Mənim davam *aqronomladır*, sizinlə nə işim var? (İ.Şıxlı). Tələbələrlə görüş *günortadan sonradır* və s.

Nümunələrdə əvvəlki üç cümlədə mübtəda (onun kimisi, bizim kimilər, səndən başqası), qalan cümlələrdə isə xəbər qoşmalı sözlərlə ifadə olunmuşdur. Göründüyü kimi, qoşmalar müxtəlif semantik tutuma (bənzətmə, səbəb, fərqləndirmə) malikdir. Lakin onların semantik müxtəlifliyi cümlə üzvünü fərqləndirməkdə rol oynamır. Əsas həmin qoşmaların qəbul etdiyi qrammatik formalardır. Onu da qeyd edək ki, bütün qoşmalar substantivləşmədə eyni dərəcədə iştirak etmir. Əsasən, bənzətmə və fərqləndirmə qoşmaları substantivləşib qoşulduğu sözlə birlikdə mübtəda funksiyasında çıxış edir.

Predikativliyin ifadə forması və imkanları geniş olduğu kimi, ifadə vasitələri də olduqca zəngin və müxtəlifdir. Bütün əsas nitq hissələri xəbərlik kateqoriyasının əlamətlərini qəbul edərək (ismin təsirlik halında olan nitq hissələri və feili bağlama istisna olmaqla) predikativlik qazana bilir, ismi və feili xəbər vəzifəsini icra edir. Bu baxımdan semantik müxtəlifliyindən (səbəb, bənzətmə, birgəlik, zaman, məsafə, zaman hüdudu) asılı olmayaraq, qoşmalar xəbərlik kateqoriyasının qrammatik for-

masını qəbul edərək xəbər vəzifəsinin öhdəsindən gəlir. "Qoşmalar qoşulduğu sözlərlə birlikdə cümlənin sadə xəbəri vəzifəsində işlənir" [2, s.114].

Bu cür vəziyyət qoşmalı sözün təyin və tərzi-hərəkət zərfliyi vəzifəsini icra edərkən də özünü göstərir. Məlumdur ki, təyin isimlə ifadə olunmuş hər hansı bir cümlə üzvünə aid olaraq onu müxtəlif cəhətdən təyin edir. Təyin həmişə əşya ifadə edən cümlə üzvlərinin əlamətini, keyfiyyətini, kəmiyyətini, sırasını, maddi əsasını, zamanını və s. bildirir. Təyin isimlə ifadə olunan cümlə üzvünü bəzən işarə baxımından, bəzən də başqa bir əşya ilə müqayisə edərək təyin edir. Bu cür semantik müxtəliflik ifadə vasitələrindən də asılı olaraq təyinin məna növlərini formalaşdırır. Onlardan biri də müqayisə təyinləridir. Müqayisə təyinləri təyin olunanın başqa bir əşya ilə müqayisəsi nəticəsində əldə edilən əlamətini aydınlaşdırır. Müqayisə əlaməti bənzətmə, müqayisə məzmunlarını özündə ehtiva edən – *kimi, tək, qədər* qoşmalarından istifadə edilməklə formalaşır. Bu qoşmalar qoşulduğu adlıq hallı söz və birləşmələrlə birlikdə isimlə əlaqələnib müqayisə təyinin ifadə vasitəsi kimi çıxış edir. Məsələn: *Məcnuntək* divanə könlüm dağ-daşı həmdəm bildi (Z.Abdulla). Dindirməyin, qan ağlaram, *dağlar qədər* dərdim var mənim (A.Səməd). *Buz kimi* barmaqlar Bənöyüşün yelinində dolana-dolana sığal verdi, sonra da bu zəif barmaqlar ovuc-ovuc südü badyaçaya sağdı (Ş.Arif). Sonra Əzəmət üzünü yamaca tutdu, *qaya kimi* səs çıxardı, elə də bərkdən-bərkdən "Bozdar, ha! Bozdar, ha!" dedi ki, yanındakılar səksəndilər, mat-mat baxdılar (Ş.Arif).

Məlumdur ki, məsdərlər təyin vəzifəsini icra etmir. Lakin adlıq halda olan məsdər və ya məsdər tərkibi müqayisə qoşmaları ilə işlənərkən birlikdə təyin vəzifəsində çıxış edə bilir: *Əbədi bir eşq yaşamaq kimi* dəli bir istək keçir könlümdən (Ş.Rza). *Vətəni sevmək kimi* ali bir hiss onu Milli Qəhrəmana çevirdi.

Aşağıda verilən nümunələrdə *kimi* qoşması ilə işlənən söz və ifadələr daha çox feili xəbərlə əlaqələnib tərz məzmunu yaradır və cümlənin tərzi-hərəkət zərfliyi vəzifəsini icra edir. Məsələn:

Çağlamaq istəyirəm *dağda şəlalə kimi,*
Səpilmək istəyirəm çöllərə *lalə kimi* (B.Vahabzadə).

Dünən mənə öz əlində
Gül gətirən bir gəlin də,
Gözlərində min bir sual
*Heykəl kimi* dayandı lal (S.Vurğun).

Üzünü döndərə *bir sərxoş kimi,*
Sığallana hərdən *bir tərlan kimi* (M.P.Vaqif).

Toran dədə əlini əlinə sürtdü, *bərk-bərk də yuyurmuş kimi* ovxaladı (Ş.Arif).

Qoşmaların qoşulduğu söz və birləşmələr daha çox tamamlıq və zərflik vəzifəsində çıxış edir. Tamamlıq ismin adlıq və yiyəlik hallarından başqa, digər hallar və qoşmalarla işlənən isimlər, əvəzliklər, substantivləşmiş nitq hissələri və birləşmələrlə ifadə olunaraq hərəkətin təsirinə məruz qalan, iş, hal-hərəkətin təsiri nəticəsində yaranan, iş və hərəkətin yönəldiyi obyekti bildirir. Tamamlığın müəyyənləşməsində sözün leksik-semantik mənası, qoşmaların yaratdığı məna əsas vasitə kimi mühüm əhəmiyyət daşımır. Qoşmaların müəyyənləşməsi birbaşa hərəkətin təsiri ilə bağlıdır və bu təsir nəticəsində tamamlıq vəzifəsini icra edən adlar qrupu müxtəlif qrammatik formalar qəbul etməli olur. Təbii ki, qrammatik formalar köməyə çatmayanda digər vasitələrdən – qoşmalardan istifadə etmək lazım gəlir. Səbəb-məqsəd, birgəlik, fərqləndirmə, seçilmə qoşmaları qoşulduğu sözlərlə birlikdə vasitəli tamamlıq vəzifəsini icra edir. *Üçün, ilə* qoşması adlıq halda olan xüsusi isimlərə, yiyəlik halda olan şəxs əvəzliklərinə qoşularaq vasitəli tamamlıq kimi çıxış edir: Siz *Kərimlə* gedin. *Anamla* mən qalaram. *Kərim üçün* bu itki ölümdən betərdir. Bu, *Qüdrət üçün* də, *Şeyda üçün* də gözlənilməz bir hadisə idi (M.Hüseyn).

Fərqləndirici qoşmalara aid edilən *başqa, savayı, ayrı, özgə, qeyri* qoşmaları qoşulduğu söz və birləşmələrlə vasitəli obyekt məzmunu yaradaraq vasitəli tamamlıq vəzifəsində çıxış edir. Bu qoşmalar xüsusiləşmiş tamamlığın yaradılmasında müstəsna rola malikdir. Xüsusiləşmə – cümlə səviyyəsində baş verən semantik-sintaktik hadisədir. Semantik-sintaktik hadisə dedikdə nəyi nəzərdə tuturuq? Sualı cavablandırmaq üçün belə bir cümləyə nəzər yetirək: Hökmdar istəmirdi ki, *xacə Ənvərdən savayı,* bir allah bəndəsi onun bu halını görsün (Y.Səmədoğlu). Bu tabeli mürəkkəb cümlənin budaq cümləsindəki *xacə Ənvərdən savayı* qoşmalı birləşmə öz məna rolunu nəzərə çarpdırmaq üçün xüsusi intonasiya ilə tələffüz edilir, fasilə ilə ayrılır və məntiqi vurğu ilə deyilir. Deməli, bu, semantik hadisədir, yəni xüsusiləşmiş üzv (tamamlıq) öz məna rolunu xüsusi olaraq vurğulayır. Həm də o, cümlə içərisindən seçilərək xüsusi fasilə və intonasiya ilə deyilir. Həmin qoşmalı birləşmə cümlədən kənar necə tamamlıq ola bilər ki? Bu da xüsusiləşmənin sintaktik hadisə olduğunu bildirir. İntonasiya, fasilə, vurğu, söz sırası ilə yanaşı, xüsusiləşməni yaradan bir sıra leksik-qrammatik vasitələr var. Bu vasitələrdən bir qismi cümlənin xüsusiləşən üzvlərinə qoşulmaqla onu cümlənin digər üzvlərindən ayıran qoşmalardır. Qeyd edildiyi kimi, fərqləndirici məzmun əmələ gətirən *başqa, savayı, qeyri, əlavə, ayrı, əvəzinə* qoşmaları xüsusiləşmiş tamamlıq yaradır. Xüsusiləşən tamamlıqla xəbər arasında olan idarə əlaqəsi zəifləyir. Tamamlıqlar bu qoşmalarla xüsusiləşərək digər

üzvlərlə birlikdə müəyyən məna münasibətləri yaradır.

1. Xüsusiləşmiş tamamlıq bütövün bir hissəsini bildirir: *Əzəmətin evindən başqa,* hər yer yanmışdı (Ş.Arif). Cümlənin ümumi semantikasına nəzər yetirsək, təsdiq feili xəbərlə ifadə edilmiş hərəkət və əlamətin xüsusiləşmiş tamamlığa aid olmadığını görərik. Yəni yanan hissəyə Əzəmətin evi daxil deyil.

2. Xüsusiləşmiş tamamlığın ifadə etdiyi əşya, hadisə istisnalıq, istisnaetmə kimi məna bildirir: Sahildə *küləyin vıyıltısından başqa,* heç nə eşidilmirdi (İ.Əfəndiyev). Bu cümlədə feili xəbər əvvəlki cümlənin feili xəbərinin əksinə olaraq, inkarda işlənmişdir. Burada bir istisnalıq var, yəni heç nə eşidilmir, səs yoxdur, eşidilən ancaq küləyin səsidir.

3. Xüsusiləşmiş tamamlıqda ifadə edilən əşya və ya şəxs digər üzvdəki əşya və ya şəxslə eynicinsli olduğunu bildirir, yəni xüsusiləşmiş tamamlıqlı cümlədə hər ikisinin varlığı mümkün olur: *Səmər nənə və Cahandan başqa,* kəndin yeniyetmə qızları da həyətdə idi (Ş.Arif). Cümlədən də görünür ki, həyətdə olan həm xüsusiləşmiş tamamlıqla ifadə edilən şəxslər, həm də mübtəda vəzifəsini icra edən *kəndin yeniyetmə qızları* birləşməsi ilə ifadə olunan şəxslərdir.

Fərqləndirmə qoşmalarından əlavə, digər qoşmalar xüsusiləşmiş tamamlıq yaratmır. *Haqqında, barəsində* qoşmaları feili xəbərlə birbaşa əlaqəyə girir, qoşulduğu söz və birləşmələrlə birlikdə vasitəli tamamlıq vəzifəsini icra edir: *Cahanın haqqında* eşitdikləri Əzəməti yandırıb qovururdu. Kənddə *onun özünün barəsində* də pıçapıç düşmüşdü və bu pıçapıç Kəlbi Kəhərin qulağına çatmışdı (Ş.Arif).

Qoşmaların qoşulduğu sözlərə müəyyən məna çaları verdiyi, bəzən eyni qoşmaların omonimlik xüsusiyyəti daşıyaraq fərqli məzmuna malik olduğu faktları bizə məlumdur. Qoşmalardakı bu cəhətlər sintaktik səviyyədə fərqli vəzifə yarada bilir. Bəzən sözün özünün məzmununda olan semantika ilə, qoşmanın məzmunu arasında uyğunsuzluq olmur və hər iki halda həmin sözlər eyni sintaktik vəzifə daşıyır. Məsələn: *Axşama hamı bizdə olacaq.* Verilmiş cümlədə yönlük halda olan *axşama* sözü zaman zərfliyi vəzifəsində çıxış edir. Əgər cümlədə bu sözə *kimi* qoşması əlavə etsək, yenə də həmin söz qoşma ilə birlikdə zaman zərfliyi vəzifəsini icra edəcək: *Axşama kimi hamı bizdə olacaq.* Deməli, sintaktik vəzifə eynidir. Fərq qoşmanın yaratdığı zaman hüdudundadır. Lakin bu heç də o demək deyil ki, qoşma qoşulduğu sözün sintaktik vəzifəsini dəyişmir.

Qoşma istənilən sözlərə qoşulmur, çünki onları əlaqələndirən semantik yaxınlıq olmalıdır. Semantik yaxınlıq əlaqələnən sözlərin həm daxili məzmunu, həm də onların birlikdə ümumi semantikası ilə bağlı yaranır. Verilən nümunədə bunun şahidi olduq. Belə ki, "axşam" və "kimi" qoşmalarının əlaqələnməsi ümumi zaman

hüdudunun meydana çıxmasını şərtləndirdi. Zaman məzmunu "axşam" sözünün fərdi semantikasında olsa da, zaman hüdudu yoxdur. Zaman hüdudunun yaranması "axşam" zərfinə artırılan yönlük hal şəkilçisidir. Yönlük hal hərəkətin yönəldiyi şəxsi, əşyanı, hərəkətin istiqamətini, hərəkətin çatacağı son nöqtəni, zaman və məkan hüdudunu bildirir. Deməк, zaman məzmunu *axşam* zərfinin daxili semantikasında olsa da, zaman hüdudu qrammatik forma ilə (-a) yaransa da, *kimi* qoşmasının həmin sözlə əlaqələnməsi zaman hüdudunu daha konkret edir, onu dəqiqləşdirir.

*Kimi* qoşması yalnız zaman hüdudunu deyil, həm də məkan hüdudunu dəqiqləşdirir. Bu zaman o, daxili, fərdi semantikasında yer, məkan anlayışı olan sözlərlə əlaqələnir, yəni yönlük halda olan isimlərə qoşulur. Məsələn: *Yaylağa maşınla gedəcəyik. Yaylağa* – haraya? sualına cavab verir, cümlədə sintaktik vəzifəsi yer zərfliyidir. *Yaylaq* leksik vahidinin semantikasında yer, məkan anlayışı qabarıq şəkildə hiss olunur, məkan hüdudunu isə yönlük halın şəkilçisi formalaşdırır. Əvvəlki nümunədə yönlük hal zaman zərfinə əlavə olunaraq zaman hüdudunu, bu cümlədə isə məkan mənalı ismə artırılaraq məkan hüdudunu şərtləndirir. Əgər bu cümləyə *kimi* qoşması əlavə edilsə, o, məkan hüdudu anlayışını konkretləşdirib mənanı qüvvətləndirər: *Yaylağa kimi maşınla gedəcəyik*. Qoşma əlavə edilmiş hər iki cümlədə qoşmalı birləşmələrin sintaktik vəzifəsi zərflik olsa da, semantik məna növünə görə fərqlidir. Birincisi zaman, ikincisi yer zərfliyidir.

Onu da qeyd edək ki, fərdi, daxili semantikasında yer, məkan məzmunu olmayan xüsusi isimlərə yönlük hal şəkilçisi ilə qoşma əlavə olunarsa, o zaman həmin birləşmə də yer zərfliyi vəzifəsini icra edə bilər. Məsələn: Yavaş-yavaş, enə-enə düz *Əzəmətə sarı* yönəldi (Ş.Arif). *Yaylaq* sözündən fərqli olaraq, *Əzəmət* xüsusi isminin leksik semantikasında yer, məkan anlayışı yoxdur. Bu dil vahidinə həmin mənanı qazandıran təklikdə yönlük halın qrammatik forması deyil. Çünki yönlük halla işlənən *Əzəmətə* sözü kimə? sualına cavab verər: Uşağı Əzəmətə verdi – kimə? Əzəmətə. Cümlənin vasitəli tamamlığı olur. Onu idarə edən xəbərin ifadə vasitəsi statik feildir. Əvvəlki cümlədə *Əzəmətə* sözü təklikdə yox, yönlük hal + qoşma + dinamik feillə ifadə olunan *yönəldi* xəbəri ilə birlikdə istiqamət məzmunu qazanır və cümlənin yer zərfliyi vəzifəsini icra edir. Deməli, bu cümlədə istiqamət məzmununun yaranmasının əsas yükü qoşmanın üzərinə düşür, dinamik feil də ona təkan verir. *Yaylağa kimi maşınla gedəcəyik* cümləsində isə qoşma əvvəlki sətirlərdə qeyd etdiyimiz kimi, məkan mənasını qüvvətləndirir və ona son hüdud məzmunu qazandırır. *Kimi* qoşması, həmçinin kəmiyyət hüdudunu da bildirir. Bu zaman o, (sinonimi – qədər) əsasən, konkret mənalı isimlərlə əlaqələnir.

Məsələn: *Dizə kimi qar yağmışdı.*

Əvvəlki cümlələrdən fərqli olaraq, bu cümlədə *kimi* qoşmasını işlətməmək qeyri-mümkündür. Qoşmanı işlətməsək, cümlə belə alınacaq: *Dizə qar yağmışdı*. Göründüyü kimi, cümlədə məntiqi əlaqə yoxdur. Qoşma bu nümunədə də yönlük halda olan sözlə əlaqələnib. Burada da hüdud anlayışı yönlük halla ifadə edilir, lakin *kimi* qoşması kəmiyyət hüdudunu, ölçü miqyasının son nöqtəsini formalaşdırır. Qoşma idarə etdiyi *dizə* sözü ilə birlikdə kəmiyyət zərfliyi (nə qədər?) vəzifəsini icra edir. Əgər bu qoşma cümlədə işlənməsə idi, *diz* sözünün leksik mənası onun kəmiyyət zərfliyi vəzifəsini icra etməsi üçün yetərli olmazdı. Bu da onu göstərir ki, cümlə üzvlərinin formalaşmasında leksik mənalı söz əsas baza olduğu kimi, qoşmalı birləşmələrin də müstəsna əhəmiyyəti vardır.

Linqvistik müstəvidə təhlilə cəlb etdiyimiz faktlar və aparılan müşahidələrdən aydın olur ki, hər üç cümlədə hüdud anlayışı var və bu anlayışın yaranmasında qoşmalar xüsusi çəkiyə malikdir. Lakin eyni hüdud məzmununa yox, fərqli məzmunlara. Belə olan halda onlar uyğun sintaktik vəzifəni yarada bilmir. Yəni qoşmalı birləşmələrin hər biri zərfliyin ayrı-ayrı məna növləri – zaman, yer, kəmiyyət zərfliyi vəzifəsini icra edir. Qoşmalı birləşmələrin zərfliyin müxtəlif məna növlərində olması həm cümləni formalaşdıran tərkib hissələrinin semantik-qrammatik cəhətdən əlaqələnməsindən, yəni əlaqəyə girdiyi sözün semantikasından, həm də birləşmənin özünün leksik-semantik xüsusiyyətlərindən asılıdır. Bu, verilən nümunələrdən aydın göründü. Zərfliyin digər semantik növlərinin formalaşmasında da qoşmalı birləşmələrin leksik-semantik xüsusiyyətlərinin əhəmiyyət kəsb etdiyini nümunələr əsasında müşahidə edək: Əzəmət üzüyuxarı *kəndə sarı* getdi, daşlı-qayalı sıldırımları o baş-bu başa vurdu (Ş.Arif); *Fikirlərimizi tamamilə mənimsədikdən sonra* orduya buraxıldı (Y.V.Çəmənzəminli); Səfərlə Miraxur *Kürün qırağına qədər* bir yerdə getdilər, orada halallaşıb ayrıldılar; Səfər *Şişəyə tərəf*, Miraxur isə *Araza doğru* getdi (Y.V.Çəmənzəminli); Kəhər *Cahanın adını eşitdiyi üçün* fınxırıb şahə qalxdı (Ş.Arif); *Qanlar tökən zaman kimi,* Vurdun neçə yara, getdin (A.M.Azaflı); İlyas *Fəxrəddini görmək üçün* saraydan çıxdı, çayın sahilinə gəldi (M.S.Ordubadi).

Qoşmaların bəziləri zərfliyin xüsusiləşməsində iştirak edir. Buraya *kimi, əvəzinə,* qoşmalaşmaqda olan *halda,* qoşmalaşmaqda olan və feili bağlama funksiyası daşımayan *baxmayaraq* sözlərini aid etmək olar. Tərzi-hərəkət zərflikləri, əsasən, feili sifət tərkibləri, ismi birləşmələrə *kimi* qoşmasının birləşməsi ilə xüsusiləşir. Məsələn: *Baxdıqlarına, gördüklərinə inanmağa çətinlik çəkdiyi kimi,* dünyada belə şeylərin olduğuna da inanmırdı (Ş.Arif). Qarşılaşdırma zərfliyi məsdər tərkibinə *əvəzinə* qoşmasının qoşulması ilə xüsusiləşir: Dəstə uzaqlaşdı, *kiçilmək, balaca görünmək əvəzinə,* cərgələndi, enləndi, böyüdü! (Ş.Arif). Məlumdur ki, uzaqlaşan

hansısa bir obyekt, şəxs və s. zamanla balacalaşır, nöqtə boyda olur və nəhayət, gözdən itir. Ancaq qoşmalı məsdər tərkibi ilə xüsusiləşmiş zərfliyin semantikasında bu, əksinədir, onda ifadə olunan fikir feili xəbərdəki hərəkətlə ziddiyyət təşkil edir. *Baxmayaraq, halda* qoşmaları da xüsusiləşmiş qarşılaşdırma zərfliyi yaradır: *Topa-topa qar yağdığına, yolu-izi itirdiyinə baxmayaraq,* Toran dədə atın axtarışına getməkdə israrlı idi (Ş.Arif). *Min cür nəzakət donuna büründüyü halda*, yaratdığı xəcalət, utancaqlıq tərini quruda bilmədi (Ş.Arif). *Payızdan xeyli keçməsinə baxmayaraq,* cənub günəşi günorta zamanları yenə isti və cansıxıcı olurdu (M.İbrahimov).

## Nəticə / Conclusion

Dil faktlarının linqvistik təhlili, müşahidə edilən dil materialları dilçiliyin sintaksis bölməsində qoşma ilə retrospektiv inteqrasiyanın nə qədər vacib, labüd və önəmli olduğunu sübut edir. İnteqrativ əsaslı təlim qoşmaların sintaktik əlaqələrinin yaranmasında, sərbəst söz birləşmələrinin əmələ gəlməsində, cümlə üzvlərinin ifadəsində, tamamlıq və zərfliyin xüsusiləşməsində müstəsna rolu olduğunu aydın əks etdirir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. (2007). Müasir Azərbaycan dili. IV hissə. Bakı, Şərq-Qərb. 424 s.
2. Kazımov Q. (2000). Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Ünsiyyət. 496 s.
3. Kazımov Q. (2010) Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Elm və təhsil. 400 s.
4. Xətayi Ş.İ. (2005). Əsərləri. Bakı, Şərq-Qərb. 384 s.
5. http://sərqqapisi.az. «elm-v-t-hsil» 4…